2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2014-cü il tarixli, 60 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 27 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 80 saylı İmişli-Beyləqan seçki dairəsi üzrə Ağamalılar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Paşayev Məhəmmədəli Mikayil oğlunun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində həmin seçki dairəsinin 23 saylı seçki məntəqəsində seçki günü ciddi qanun pozuntularının baş verməsi ilə əlaqədar Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2014-cü il tarixli, 60 saylı müraciətini araşdıraraq **müəyyən etdim:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.2-ci və 112.3-cü maddələrinin tələblərinə uyğun olaraq göndərilməmişdir. Belə ki, 112.2-ci maddənin tələbinə görə Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər. 112.3-cü maddədə isə göstərilir ki, şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, həmin şəxslər dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət edə bilərlər.

Göründüyü kimi müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdur. Belə halda, yəni şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduqda yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə görə həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 8.6-cı bəndinə əsasən **r ə y ə  g ə l d i m** :

1. 80 saylı İmişli-Beyləqan seçki dairəsi üzrə Ağamalılar bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Paşayev Məhəmmədəli Mikayil oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmüş 26 dekabr 2014-cü il tarixli, 60 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 80 saylı İmişli-Beyləqan seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**